# «Polis haqqında» Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli, 768-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş «Gömrük orqanlarında xidmət haqqında Əsasnamə»yə və «Prokurorluq orqanlarında qulluq keçmə haqqında» Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavə edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

I. «Polis haqqında» Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999-cu il, № 11, maddə 611; 2001-ci il, № 11, maddə 699, № 12, maddə 731; 2002-ci il, № 3, maddə 118, № 6, maddə 328; 2003-cü il, № 1, maddə 22, № 8, maddə 424; 2004-cü il, № 2, maddə 57, № 3, maddə 133; 2006-cı il, № 2, maddələr 74, 75, № 11, maddə 927) 37-ci maddəsinin II hissəsində *«həlak olmuş, bədən xəsarəti almış»* sözləri *«həlak olmuş (vəfat etmiş), xəsarət (yaralanma, travma, kontuziya) almış»* sözləri ilə əvəz edilsin.

II. Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli, 768-IQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, № 1, maddə 12; 2001-ci il, № 12, maddələr 731, 736; 2004-cü il, № 2, maddə 57; 2005-ci il, № 4, maddə 274, № 7, maddə 590; 2006-cı il, № 11, maddə 926; 2007-ci il, № 1, maddə 1) ilə təsdiq edilmiş «Gömrük orqanlarında xidmət haqqında Əsasnamə»nin 132-ci maddəsində *«həlak olan»* sözlərindən sonra mötərizədə *«vəfat edən»* sözləri əlavə edilsin, *«yaralanma, kontuziya»* sözləri *«xəsarət (yaralanma, travma, kontuziya)»* sözləri ilə əvəz edilsin.

III. «Prokurorluq orqanlarında qulluq keçmə haqqında» Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 7, maddə 452, № 12, maddə 731; 2002-ci il, № 12, maddə 706; 2005-ci il, № 10, maddə 902; 2006-cı il, № 11, maddə 927; 2007-ci il, № 1, maddələr 1, 4, Azərbaycan Respublikasının 2007-ci il 1 fevral tarixli, 237-IIIQD nömrəli Qanunu) 20.6-cı maddəsində *«xəsarət almış»* sözləri *«xəsarət (yaralanma, travma, kontuziya) almış»* sözləri ilə əvəz edilsin.

IV. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

***Azərbaycan Respublikasının Prezidenti***

***İlham ƏLİYEV***

***Bakı şəhəri, 2 iyun 2008-ci il***

***№ 622-IIIQD***

***«Azərbaycan» qəzetində dərc edilmişdir (8 avqust 2008-ci il, № 174) («VneshExpertService» LLC).***

***«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir (31 avqust 2008-ci il, № 8 (134), maddə 696) («VneshExpertService» LLC).***